# Azərbaycan Almatıda IV Beynəlxalq Gənclər Festivalında təmsil olunur

Almatıda Türk Dövlətləri Təşkilatının (TDT) IV Beynəlxalq Gənclər Festivalının açılış mərasimi olub.

AZƏRTAC Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Qazaxıstanın cənub paytaxtı ilk dəfə olaraq "2025-ci il Türk dünyasının gənclər paytaxtı" statusuna layiq görülüb. Açılış mərasimində Lənkəran şəhərinin nüma-




yəndələri rəmzi açarı təntənəli şəkildə Almatı gənclərinə təhvil verib, bununla da qardaşlıq, etimad və yeni imkanlar estafetini davam etdiriblər.

Tədbirdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin, o cümlədən Qazaxıstan, Azərbaycan, Qırğızıstan, Türkiyə və Özbəkistan nümayəndələri gənclər siyasəti, sahibkarlıq, vətəndaş fəallığı və sosial təşəbbüslərin inkişafı sahəsində layihələrin həyata keçirilməsində təcrübələrini bölüşəcəklər.


Azərbaycan.- 2025.- 20 avqust (№174).- S.12.